Tarix və onun problemləri, №3 2009

XƏQANİ MƏMMƏDOV
*professor*
NURU MƏMMƏDOV
*dosent*

# BAKI DÖVLƏT UNİVERSİTETİNİN YARADILMASINDA AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİNİN FƏALİYYƏTİ

XX yuzilliyin birinci rübündə Azərbaycan xalqının yaradıcı təfəkkür və düşüncə tərzinin, onun inqilabi mübarizə və milli azadlıq hərəkatının ən böyük nailiyyəti özünün müstəqil milli dövlətini bərpa etmək fikri və onu əməli sürətdə həyata keçirmək əzmi və qətiyyətidir. Cəmi 23 ay ömür sürmüş Azərbaycan Xalq Cümhuriyyəti tarixinin hər bir anı heç bir qiymət vahidi ilə ölçülə bilməyəcək tükənməz xəzinədir və zəngin həyat məktəbidir.

Beş min illik dövlətçilik tarixinə malik olan Azərbaycan xalqının müstəqillik və dövlətçilik ənənələrinin möhkəmləndirilməsi uğrunda aparılan mübarizə tarixinin və onun qəhrəmanlıq epopeyasının zəngin dövrləri və mənalı səhifələri çoxdur. Xalqımızın və tariximizin belə şərəfli və qeyrətli dövrlərindən biri də 1918-1920-ci illəri əhatə edən və cəmi 23 ay ömür yaşayan, Şərq dünyasında ilk Demokratik Respublika, Türk dünyasında ilk parlamentli Respublika olan və Avropa ölkələrinin demokratik prinsiplərini özündə əks etdirən Azərbaycan Xalq Cümhuriyyətinin tarixidir. Xalqımızın ümummilli lideri, müstəqil Azərbaycan Respublikasının banisi Heydər Əliyev demişdir: «Bu gün tam qətiyyətlə demək olar ki, Azərbaycan dövləti, müstəqil Azərbaycan Respublikası 1918-ci ildə yaranmış Xalq Cümhuriyyətinin varisidir. Biz bu varislik prinsipini şərəflə, sədaqətlə yerinə yetiririk»[1].

«İstiqlal bəyannaməsi» ilə həyata vəsiqə alan Azərbaycan Xalq Cümhuriyyəti bütün müsəlman dünyasında ilk demokratik respublika idi və o Azərbaycan xalqının qədim dövlətçilik ənənələrini bərpa etdi, insan hüquqlarının və azadlıqlarının təmin edilməsinə, irqi, milli, dini, sinfi və digər sosial bərabərsizliklərin ləğvinə, sivilizasiyalı dövlətlərin inkişaf etmiş demokratiyasından istifadə edilməsinin həyata keçirilməsinə əsaslı şərait yaratdı. Aərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin dediyi kimi, Azərbaycan Xalq Cümhuriyyətinin yaranması bizim vaxtilə itirilmiş dövlətçiliyimizi bərpa etdi, xalqımızın tarixində ilk dəfə demokratik prinsiplər əsasında müstəqil Azərbaycan dövlətinin və hökumətinin yaranmasının əsasını qoydu. Azərbaycan Xalq Cümhuriyyəti Şərq dünyasında ilk dəfə idi ki, demokratik və qanunvericilik parlament quruculuğunu həyata keçirərək xalqımızın tarixində, dövlət müstəqilliyinin möhkəmləndirilməsi sahəsində qətiyyətli addımlar atmış, ölkənin iqtisadi və siyasi inkişafında, mədəniyyət, maarif və xalq təhsili sahəsində, habelə bir çox sosial problemlərin həllində prinsipial əhəmiyyətə malik olan tədbirlər həyata keçirmişdir.

Cümhuriyyətin 91-ci ildönümü münasibətilə Azərbaycan Prezidenti İlham Əliyev demişdir: «... müsəlman aləmində ilk dəfə demokratik cümhuriyyət quruldu, Azərbaycan xalqı müstəqilliyə və azadlığa qovuşdu»[2].

Azərbaycan Xalq Xühuriyyətinin yaranmasından sonra onun qarşısında duran ən mühüm məsələ daxili və iqtisadi vəziyyətin ağır, beynəlxalq vəziyyətin mürəkkəb olmasına baxmayaraq milli mədəniyyətin, təhsilin və xalq maarifinin inkişafına xüsusi diqqətin verilməsi, elmin və ədəbiyyatın tərəqqisinə önəm verməsi oldu. Bu istiqamətdə xalqımızın, dövlətçiliyimizin şərəfli tarixində milli müqəddaratımızın inkşaf taleyində mühüm tarixi rolu olan Bakı Dövlət Universitinin mürəkkəb şəraitdə yaradılması oldu.

Yarandığı gündən bu günə qədər Bakı Dövlət Universiteti Azərbaycan xalqının elm və mədəniyyətinin, xalq maarifi və təhsilinin elmi və intellektual mərkəzinə, aparıcı bayraqdarına və güclü qərargahına çevrildi. Ona görə ki, sonradan yaranan Azərbaycan Kənd Təsərrüfatı İnstitutu, Azərbaycan Pedaqoji İnstitutu, Milli Konservatoriya və digər ali məktəblər məhz Bakı Dövlət Universitetinin elmi və tədris-metodik köməkliyi ilə həyata vəsiqə ala bildi.

Azərbaycan Xalq Cümhuriyyətinin 1919-cu ildə xüsusi qərarla açdığı Bakı Dövlət Universiteti xalqımızın mədəni həyatında əlamətdar hadisə idi. Cümhuriyyət hökumətinin ən böyük xidmətlərindən biri məhz universitetin yaradılması idi. Cümhuriyyət xadimləri çox gözəl bilirdilər ki, xalqın maariflənməsi işində universitet mühüm rol oynaya bilərdi. Bunu nəzərə alaraq Cümhuriyyət rəhbərləri çox böyük çətinliklər bahasında olsa da Bakı Dövlət Universiteinin açılmasına nail ola bildilər. Universitet yaradılan kimi qısa müddətdə Azərbaycanın ayrı-ayrı qəzalarında və kəndlərində 637 ibtidai məktəb, 23 yeni ibtidai və orta ixtisas məktəbi, 6 kişi, 4 qadın gimnaziyası, 5 realnı məktəb, 3 müəllimlər seminariyası, 3 qadın tədris müəssisəsi açıldı[3]. Bu maarif ocaqları və tədris müəssisələrinin hesabına fəaliyyət göstərirdi. Oxuculara aydın olsun deyə xatırlatmaq istəyirik ki, universitetin açıldığı 1919-cü ilin sentyabr-oktyabr aylarından fəaliyyətə başladığı və Azərbaycan Xalq Cümhuriyyətinin süqutu dövrünə qədər olan 6 aylıq qısa zaman dövründə Azərbaycanda bu qədər tədris müəssisələrinin yaradılması məhz Bakı Dövlət Universitetinin fəaliyyəti nəticəsində mümkün olmuşdur.

İmperiyanın qatı müstəmləkəçilik siyasəti üzündən 1919-cu ilə qədər Azərbaycanda heç bir ali məktəb yox idi. Azərbaycan Cümhuriyyəti qarşısında duran ümdə vəzifələrdən biri ali təhsil müəssisələri açmaq və yüksək ixtisaslı milli kadrlar hazılamaq idi. Yaxın vaxtda bir neçə ali məktəbin, o cümlədən Bakı Universitetinin, Kənd Təsərrüfatı və Pedaqoji İnstitutların, Dövlət Konservatoriyasının açılması vacib məsələ kimi qarşıya qoyulmuşdu[4].

Lakin o dövrdəki olduqca çətin şərait və maliyyə vəsaitinin qıtlığı ancaq Bakı Universitetini açmağa imkan verdi və ciddi çətinliklərlə üzləşdi. Belə ki, cəhalət tərəfdarları şəriət ehkamlarını bəhanə edib, onun yaradılması əleyhinə çıxır, bunun əvəzinə Müsəlman Ruhani Akademiyası açmağı təklif edirdilər. Elələri də tapıldı ki, universitet açmaq əvəzinə Azərbaycan gənclərini Avropanın və Türkiyənin ali məktəblərinə göndərməyi tələb edirdilər.

Universitetin açılması ilə əlaqədar keçirilən mübahisələrdə azərbaycanlılar içərisində universitetdə oxuyacaq gənclərin olmadığını söyləyənlər də vardı. Cümhuriyyət rəhbərləri və qeyrətli ziyalılar buna cavab olaraq bildirdilər ki, onun açılması kifayət qədər milli kadrların hazırlanmasına və təsərrüfatın müxtəlif sahələri üçün yüksək ixtisaslı mütəxəssislərin yetişdirilməsinə səbəb olacaq.

Məşhur ictimai xadim və pedaqoq Məmməd ağa Şahtaxtlinski «Azərbaycanda Universitet» məqaləsində yazmışdı: «İctimai və siyasi şərait bizdən tələb edir ki, biz rus alimlərindən istifadə edib rus dilində universitet açaq... Biz rus dilində açılacaq bu universiteti milliləşdirməli və azərbaycanlılaşdırmalıyıq»[5].

Azərbaycanın görkəmli pedaqoqları və ictimai xadimləri universitetin qapılarını əməkçi balalarının üzünə açmağı, burada həm rus, həm də Azərbaycan dilində təhsil verilməsinin vacibliyini vurğulayırdılar.

Müsavat partiyası Azərbaycanda universitet açılması ilə əlaqədar geniş izahat və təşkilati iş aparmışdı. Bununla əlaqədar Müsavat partiyası xadimlərindən biri parlament iclasında demişdi: «Yeganə çıxış yolu yaxın vaxtlarda Avropanın ən zəngin dillərindən birində universitetin açılmasıdır. Bizim yaşadığımız indiki şəraitdə bu, rus dili

ola bilər... Heç bir şübhə yoxdur ki, nəticə etibarilə bu universitet Azərbaycan dövlətinə və Azərbaycan mədəniyyətinə xidmət edəcəkdir»[6].

Bakı Universitetinin yaradılması bu partiyanın rəhbəri M.Ə.Rəsulzadənin adı ilə bağlıdır. O, dəfələrlə Azərbaycan parlamentində çıxış etmiş, onun açılmasının vacibliyini qeyd etmişdi. Universitetin ilk rektoru prof. V.Razumovski sonralar yazmışdı: «M.Ə.Rəsulzadənin sayəsində, onun güclü maarifçilik köməyi ilə qısa vaxtda universiteti açmaq mümkün oldu»[7].

Həm də belə bir faktı qeyd etmək vacibdir ki, Universitetin təsisçilərindən biri kimi M.Ə.Rəsulzadə elə o vaxt tarix-filologiya fakültəsində «Osmanlı ədəbiyyatı tarixi»ndən dərs demişdir[8].

Universitetin açılmasında N.Yusifbəylinin, F.X.Xoyskinin, Xalq Maarifi Naziri R.Kaplanovun və onun müavini H.Şahtaxtlinskinin da böyük xidmətləri olmuşdur.

Keçirilən ətraflı müzakirələrdən sonra Azərbaycan hökuməti 1919-cu ilin mayında universitet açmaqla əlaqədar Xalq Maarifi Nazirliyində xüsusi komissiya yaratdı. Komissiya özünün ilk iclasında bildirdi ki, Azərbaycan hökuməti universitet açmaq barədə qəti qərara gəlib və burada bütün arzu edənlər təhsil ala biləcəklər. Özü də qəbul vaxtı azərbaycanlı abituriyentlərə üstünlük veriləçək.

Həmin il iyunun 16-da hökumət universitetin ştatını və büdcəsini təsdiq etdi. Sentyabrın 1-də Azərbaycan parlamenti Bakı Universitetinin açılması haqqında qanunu, sentyabrın 28-də isə onun nizamnaməsini qəbul etdi. Bununla Azərbaycan xalqı özünün ən yüksək maarif ocağına malik oldu. Prof. V.İ.Razumovski yazırdı: «Azərbaycan xalqının tarixinə yeni parlaq səhifə yazıldı. Avropanın və Asiyanın hüdudlarında yeni məşəl yandırıldı»[9].

Universitetin məhz Bakıda açılması barədə 1919-cu ilin əvvəllərində F.X.Xoyski, N.B.Yusifbəyli, Xalq maarifi nazirinin müavini Həmid bəy Şahtaxtinski, prof. V.İ.Razumovski və b. ciddi səy göstərirdilər. Razumovski yazırdı: «... hətta Zaqafqaziya rus universiteti köçməsə də, Bakıda universitet yaradılacaqdı». Azərbaycan hökumətinin dəvətini və təklifini qəbul edən, dövrün tanınmış alimi prof. V.İ.Razumovski Bakı Dövlət Universitetinin rektoru olmağa razılıq verdi.

Həmin vaxt universitetin Bakıda açılmasının əleyihə olan müxalif qüvvələr də vardı. Həmin adamlar işə mane olmaqla yanaşı, təhsilin rus dilində aparılmasını belə əsaslandırırdılar ki, guya milli kadrlar yoxdur. «Universitetin təsisi əleyhinə olan əsassız iddialar mütərəqqi və uzaqgörən parlament üzvləri və qabaqcıl ziyalılar tərəfindən qətiyyətlə rədd edildi»[10]. Bütün fakültələrdə türk dili məcburi fənn kimi tədris edildi.

Cümhuriyyət hökuməti 1919-1920-ci tədris ilində universitet üçün 10 milyon manatdan çox vəsait ayırdı. Universitetin açılmasına milli burjuaziyanın nümayəndələri də köməklik göstərdilər, bu işdə H.Z.Tağıyevin xüsusi olaraq fərqlənmişdi. Universitetin idarə heyətinin 1919-cu il oktyabrın 11-də keçirilmiş müşavirəsində Cümhuriyyət parlamentinin sədr müavini M.Qəniyev və prof.L.Lopatinskidən ibarət nümayəndə heyətini H.Z.Tağıyevi yanına göndərib, ondan universitetə maddi yardım göstərilməsini xahiş etmək qərara alınmışdı. Maarifçi və mesenat H.Z.Tağıyev nümayəndə heyətini səmimi qarşılayıb lazımi yardım göstərəcəyini vəd etmişdi[11].

1919-cu il sentyabrın 1-dən başlayaraq universitetin birillik müvəqqəti ştat cədvəli, üç il müddətinə ilk rektor və dekanları təsdiq edildi. Universitetə Elmi Şurada idarə heyəti təşkil etmək hüququ verildi. Universitetdə dərs demək üçün Moskva, Rostov, Yekaterinoslov, Xarkov və digər şəhərlərdən görkəmli alimlər dəvət edildi. Universitetdə ilk dərslər noyabrın 15-də başlandı.

İlk tədris ilində tarix-filolokiya, fizika-riyaziyyat, hüquq və tibb fakütlələrinin açılması nəzərdə tutulmuşdu. Noyabr ayında Universitetə qəbul başa çatdı. Oraya 1094

gənc qəbul edildi. Onlardan 297-si azərbaycanlı, 209-u rus, 151-i erməni, 366-sı yəhudi, 41 nəfəri isə başqa millətlərin nümayəndələri idilər[12].

Fəaliyyətə başladığı ilk vaxtlarda universitetdə 12 professor, 3 dosent, 29 müəllim - cəmi 44 nəfər çalışırdı. Onların içərisində M.Şahtaxtlinskinin, Ə.M.Topçubaşovun, A.Hacıyevin və digər azərbaycanlı alimlərin xidmətlərini qeyd etmək vacibdir. Burada rus, yəhudi, gürcü və digər millətlərdən olan alimlər də səmərəli fəaliyyət göstərmişlər. Müxtəlif vaxtlarda burada 6 alman müəllimi işləmiş və xeyli miqdarda alman tələbəsi təhsil almışdır[13]. Bakı Dövlət Universiteti yarandığı gündən bu günə qədər şərəfli bir tarixi yol keçmiş, Azərbaycan xalqının milli mədəniyyətinin, elm və təhsilin, xalq maarifinin və ədəbiyyatının inkişafında, güclü milli elmi potensialın yaradılmasında respublikamızda və respublikadan kənar xarici ölkələrdə ad-san qazanan, yüksək hörmət və şərəf qazanan ali təhsil məbədgahına çevrilmişdir. Dünyanın bir çox tanınmış alimləri, dövlət və hökumət başçıları bizim Bakı Dövlət Universitetinin fəxri doktorları sırasındadır. Görkəmli dövlət xadimi, müstəqil Azərbaycan dövlətinin memarı Heydər Əliyev Bakı Dövlət Universitetinin fəxri doktorudur. 1957-ci ildə Bakı Dövlət Universitetinin tarix fakültəsini fərqlənmə diplomu ilə bitirən Heydər Əliyev demişdir: «Mən fəxr edirəm ki, Bakı Dövlət Universitetinin məzunuyam». Bu gün Bakı Dövlət Universiteti fəxr edir ki, Heydər Əliyev bu Universitetdə təhsil almış, bu Universitetin məzunudur. 2008-ci ilin sentyabrında BDU-nun yeni tədris korpusunun açılışı mərasimində Azərbaycan Respublikasının möhtərəm Prezidenti İlham Əliyev bu təhsil ocağının fəaliyyətinə böyük önəm verərək demişdir: «Bakı Dövlət Universiteti Azərbaycanın aparıcı təhsil ocağıdır. Burada çox güclü professor-müəllim heyəti vardır və bütün dövrlərdə universitet Azərbaycanda peşəkar kadrların hazırlanması işində çox böyük işlər görmüşdür»[14].

Azərbaycanda ilk ali təhsil ocağı olan Bakı Universitetinin açılması tarixi keçmişimizin, xalqın zəngin elmi və mədəni irsinin öyrənilməsi və təbliğində, onun milli ruhunun inkişafında müstəsna rol oynadı.

Universitetdə elmin və təhsilin inkişafını müasir tələbələr səviyyəsinə qaldırmaq məqsədilə qabaqcıl dünya səviyyəsinə cavab verən müasir kompüter şəbəkəsi yaradılmış və qısa vaxt ərzində universitet alimləri haqqında informasiya «İnternet» vasitəsilə bütün dünyaya çatdırılmışdır. Universitet respublika elm və təhsil sisteminin beyin mərkəzinə çevrilmişdir Universitetdə ölkə və beynəlxalq miqyaslı tədris, elmi-nəzəri simpoziumların keçirilməsinə, Azərbaycan elminin və təhsilinin dünya birliyinə inteqrasiyası üçün hərtərəfi zəmin yaradılmışdır. Bakı Dövlət Universitetinin elmi potensialını qiymətləndirən inkişaf etmiş ölkələrin qabaqcıl universitetləri, o cümlədən Amerika Birləşmiş Ştatlarının İndiana, Fransanın Nitsa, İtaliyanın Genuya, Yaponiyanın Yokohama universitetləri və digər beynəlxalq universitetlər BDU ilə qrantlar və beynəlxalq proqramlar üzrə müştərək elmi axtarışlar aparmağa başlamışlar.

Böyük tədris-metodiki bazaya və elmi potensiala malik olan Bakı Dövlət Universitetinin bu gün geniş beynəlxalq əlaqələri yaradılmışdır. Bakı Dovlət Universiteti özünün maddi-texniki bazası, güclü və potensiat alimlər kollektivinin köməyi ilə hazırda dünyanın qabaqcıl universitetləri ilə yaxşı mənada rəqabət aparmaq iqtidarmdadır.

2008-ci il sentyabrın 15-də BDU-nun yeni korpusunun açılışında rektor akademik Abel Məhərrəmov çox gözəl demişdir ki, hazırda BDU-da 18 min tələbənin təhsili ilə 1300-dək akademik, professor və müəllim məşğul olur. BDU dövlətimizin etibarlı dayağı olmaqla bərabər, bu gün də ali təhsil sisteminin bayraqdarıdır[15].

Hazırda Bakı Dövlət Universitetinin rəhbərliyi yeni-yeni ixtisaslar və istiqamətlər üzrə fəaliyyətinin genişlənməsinə xüsusi diqqət yetirir. Bu gün Bakı Dövlət Univer-

sitetinin rektoru, akademik Abel Məhərrəmovun diqqət və qayğısı sayəsində Bakı Dövlət Universiteti özünün zəngin və şərəfli bir dövrünü yaşayır.

### *MƏNBƏLƏR:*

1.Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. B., 1997, İkinci kitab, s.5
2.İlham Əliyev. Azərbaycan öz tarixinə, milli irsinə bağlı olan müasir, dünyəvi dövlətdir. "Respublika", qəzeti, 28 may 2009-cu il.
3.Xəlil Köçərli, Xəqani Məmmədov. Azərbaycan Xalq Cümhuriyyətinin təhsil, elm və mədəniyyət sahəsində fəaliyyəti (1918-1920-ci illər). B., 1999, səh.39
4.Yenə orada, səh.4-5
5.Vəkilov M. Azərbaycanda universitet təhsili tarixindən (1919-1930). ADU-nun Elmi əsərləri, №5, 1967
6.Əlimirzəyev X. Azərbaycan Dövlət Universiteti 50 ildə. B., 1969, səh.29
7.Razumovski V.İ. Bakı şəhərində universitetin əsasının qoyulması. BDU-nun xəbərləri, №2, 1922-ci il
8.Rəsulzadə M.Ə. Əsrimizin Səyavuşu. Çağdaş Azərbaycan ədəbiyyatı. Çağdaş Azərbaycan tarixi. B., 1991, səh.12
9.Razumovski V.İ. Göstərilən əsəri, səh.9
10.Məhərrəmov A. Bakı Dövlət Universiteti. B., 2000, səh.15
11.İsmayıl M., İbrahimov M. El atası. B., 1994, səh.39
12.Xəlil Köçərli. Xəqani Məmmədov. Göstərilən əsəri, səh.48
13.İbrahimov N. Azərbaycan tarixinin alman səhifələri. B., 1997, səh.14
14.İlham Əliyev. Azərbaycanın dövlət siyasətində təhsil prioritet məsələdir. "Respublika" qəzeti, 16 sentyabr, 2008-ci il
15.Abel Məhərrəmov. Bakı Dövlət Universitetinin yeni korpusunun açılışı mərasimində çıxışı. "Respublika" qəzeti, 16 sentyabr 2008-ci il

**ХЯГАНИ МАММЕДОВ**
***профессор БГУ***
**НУРУ МАМЕДОВ**
***доцент БГУ***

**ДЕЯТЕЛЬНОСТЬ АЗЕРБАЙДЖАНСКОЙ НАРОДНОЙ РЕСПУБЛИКИ В СОЗДАНИИ БАКИНСКОГО ГОСУДАРСТВЕННОГО УНИВЕРСИТЕТА**

В статье рассказывается о создании Бакинского государственного Университета, который отмечает 90-летний юбилей в текущем году. Особо подчеркивается роль Азербайджанской Народной Республики в создании БГУ.

**KHAQANI MAMMADOV**
**NURU MAMMADOV**

**THE ACTIVITY OF AZERBAIJAN DEMOCRATIC REPUBLIK IN FOUNDATION BAKU STATE UNIVERSITY**

In the article it's spoken about the foundation of Baku State University wich is going to celebrate it's 90 th anniversary this year. The role of ADR is especially mentioned in the foundation of BSU.

***Rəyçilər: t.e.n.A.Rzayev, t.e.d.A.C.İsgəndərov.***
***BDU-nun Azərbaycan tarixi (humanitar fakültələr üzrə) kafedrasının 14 sentyabr 2009-cu il tarixli iclasının qərarı ilə çapa məsləhət görülmüşdür (protokol №01).***